Əyilmədik, sınmadıq, azadlıq ruhu ilə qalib gəldik

35 il əvvəl Bakı şəhərində dinc insanlara qarşı törədilmiş qanlı qırğın ermənilərin fitvası ilə əlləri dirsəklərinə qədər xalqımızın qanına bulaşmış xain Qorbaçovun əmri ilə baş vermişdir. Həmin dəhşətli günləri xatırlayanda o qanlı gecənin şaxtası, sazağı, qətlə yetirilən insanların nakam taleyi ürəyimizi, ruhumuzu indi də üşüdür, qaniçən cəlladların amansızlığı gözlərimiz önündə yenidən canlanır. Ən yaxın tarixin o dəhşətli anlarının şahidi kimi demək istədiyim sözlər sanki al-qana bürünür, kəlmələr qüssədən, kədərdən pəhsinsə də həm də qüruru, qəhrəmanlığı, mübarizliyi əks etdirir, bir xalqın azadlıq hayqırtısına dönür.

Ötən əsrin sonlarında, daha doğrusu, 1988-ci il fevral ayının əvvəlində keçmiş Dağlıq Qarabağda, Xankəndi şəhərində erməni millətçilərin, şovinistlərin qızışdırdıqları separatizm, erməni faşizmi, onların xəstə və yalan iddiaları baş qaldırdı. Ermənilər Xankəndidə aramsız olaraq mitinqlərə başladılar. Həmin mitinqlər keçmiş sovet hüquq-mühafizə orqanlarının gözü qarşısında baş verirdi. Ermənilərin tələbi belə idi ki, Qarabağ Azərbaycanın tərkibindən ayrılmalı və Ermənistana birləşdirilməlidir. Keçmiş sovet rəhbərliyi, o cümlədən Sov. İKP-nin baş katibi M.Qorbaçov bölgədə baş verənlərə açıq-aşkar göz yumur, münaqişənin qızışmasına şərait yaradırdı. Təbii ki, bu da ermənilərin daha da azğınlaşmasına, ardı-arası kəsilməyən mitinqlər keçirməsinə rəvac verirdi. Hadisələr sürətlə cərəyan edir, Xankəndidə yaşayan azərbaycanlılara qarşı terror törədilir, onların evləri yandırılır, maşınları daşqalaq edilir, qətlə yetirilir, dədə-baba yurdlarından qovulurdular. Sonra bu torpaqlarda erməni silahlı dəstələri, daşnaklar, muzdlular peyda oldu və bu da qədim Azərbaycan torpağı olan Qarabağda dincliyi və əmin-amanlığı ciddi şəkildə pozdu. Artıq ermənilər azərbaycanlılar yaşayan kəndlərə hücum edir, dinc sakinləri qətlə yetirir, sərnişin avtobusları atəşə tutulurdu.

Həmin vaxt erməni həyasızlığına qarşı Ağdam şəhərində kütləvi mitinqlər başlandı. Ağdamlıların keçmiş sovet rəhbərliyindən yalnız bir tələbi var idi, erməni şovinizminə və terror hadisələrinə son qoyulsun. Onların harayı eşidilməyəndə şəhərin mərkəzi meydanına toplaşmış minlərlə insan ermənilərin dərsini vermək üçün Əsgərana tərəf hərəkətə keçdi. Qəzəblənmiş insanlar Əsgərana çatmağa az qalmış silahlı ermənilər dinc yürüşçüləri atəşə tutdular. İki ağdamlı gənc - Əli Hüseynov və Bəxtiyar Hacıyev şəhid oldu. Bölgədə müharibə qığılcımları artıq alovlanırdı. Dağlıq Qarabağda və ətraf rayonlarda yaşayan azərbaycanlılar ermənilərin haqsız tələblərinə qarşı qəti etiraz edərək Moskvanı ədalətli mövqe tutmağa çağırsalar da heç bir nəticə olmurdu. Bölgədə azərbaycanlılara qarşı erməni talanları və terror hadisələri şiddətli xarakter alandan sonra keçmiş SSRİ-nin bədnam prezidenti Mixail Qorbaçov Azərbaycanda fövqəladə vəziyyət elan edərək komendant saatı tətbiq etdi. Bundan sonra Bakıda və digər rayonlarda dinc etiraz mitinqlərini vəhşiliklə dağıtmağa başladılar. Keçmiş Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün Ağdamda da fövqəladə vəziyyət elan olundu, komendant saatı tətbiq edildi. Axşam saat 8-dən sonra küçəyə çıxmaq qadağan idi. 1988-ci ildə isə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız öz dədə-baba torpaqlarından, qədim yurd yerlərindən deportasiyaya məruz qaldılar. Qaçqın dalğası Azərbaycanı bürüdü, insanlar, sözün əsl mənasında, taleyin ümidinə qalmışdılar, çökməkdə olan sovet rəhbərləri qaçqınların öz evlərinə qaytarılması üçün heç bir tədbir görmədilər. Əksinə, ermənilər ciddi şəkildə silahlanaraq azərbaycanlıları qətlə yetirir, mal-mülkünü dağıdırdılar. 1990-cı il yanvarın 12-dən 20-nə qədər erməni silahlı dəstələri Goranboyun Todan kəndində 6 nəfəri, Xanlar (indiki Göygöl) rayonunun Quşçu kəndində 10-a yaxın, Kərkicahanda 3 nəfəri, Şəfəq (Göygöl rayonu) və Hacılar (Laçın rayonu) kəndində 2 nəfəri, Naxçıvanın Sədərək rayonu ərazisində 10 nəfəri, (onlardan ikisi 4 və 6 yaşlı körpə olub) xüsusi amansızlıqla qətlə yetirdilər. Bəli, ermənilərə azərbaycanlılara qarşı silahlı hücumlar etmək üçün işarə məhz Moskvadan verilmişdi, çünki öldürülən mülki insanların qanı batırdı, cinayətkarlar isə cəzasız qalırdılar. 70 il Azərbaycanın sərvətlərini sümürən, qızılına bəzənən, kürüsü ilə bəslənən Kreml Azərbaycanda erməni talanlarına və terroruna göz yumdu.

Şəhidlər qütb ulduzu, mübarizlik rəmzi, qürur mənbəyidir

1990-cı il yanvar ayının 19-da Ağdama güclü qar yağmışdı, qarın ağırlığından həmişəyaşıl ağacların budaqları yerə dəyirdi. Qarabağda yaşayan azərbaycanlıların ümid və pənah yerinə çevrilmiş Ağdamda əmin-amanlığı pozan ermənilər azərbaycanlılara, qarşı sözün əsl mənasında, müharibəyə başlamışdılar. Yanvarın 19-u axşam saatlarında evimizdəki televizorun ekranı söndü. Bir müddət keçdi. Qohum-qonşulara zəng edib öyrəndik ki, hamıda vəziyyət eynidir. Yatsaq heç yuxumuza da girməzdi ki, sovet ordusunun bölmələri dinc insanlara atəş açа bilər, hərbi təcavüz törədərlər. Vahiməli anlar yaşadıq, radio-televiziya işləmir, şəhərlərarası telefon rabitəsi kəsilmişdi. Şəhərə çıxmaq istədikdə elə küçədə başdan-ayağa silahlanmış rus əsgərləri ilə rastlaşdıq. Həyəcan get-gedə artırdı, axı nə baş verib sualı hamını düşündürürdü. Səhər tezdən Ağdama xəbər yayıldı ki, yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusu Bakı şəhərində dinc insanlara qarşı qətliam törədərək yüzlərlə insanın, o cümlədən qadınların, gənclərin, uşaqların həyatına son qoyub, çoxlu yaralı var. Bir daha qeyd edək ki, Bakı ilə bütün rabitə əlaqələri kəsilmişdi. Xüsusilə də bölgələrdə yaşayan əhali Bakıda baş verən qırğından xəbərsiz qaldığı üçün şayiələr baş alıb gedirdi. Yanvar ayının 21-i, Ağdam şəhəri, mərkəzi poçtamtın qarşısı adamlarla dolu idi, Bakıda olan oğlundan, qızından, qohumundan xəbər tutmaq istəyənlərin səsi, qadınların göz yaşları binanın divarlarında əks-səda verirdi. İnsanlar Bakıda törədilmiş faciədən xəbərsiz idilər. Heç bir məlumat almaq mümkün deyildi. Bu qanlı faciədən elə bil təbiət də sarsılmışdı, güclü qar yağır, şaxta qılınc kimi kəsirdi. Lakin heç kəs yerindən tərpənmirdi. Təxminən günortaya yaxın Bakıdan gələn bir neçə nəfər ağdamlı baş verənləri danışdılar, Ağdam matəmə büründü, insanlar dəstə-dəstə mərkəzi meydana yaxınlaşmaq istəyəndə silahlı sovet əsgərləri onlara imkan vermədilər. Bütün Azərbaycan qan ağlayırdı, azadlıq uğrunda yüzlərlə insan şəhid olmuşdu. Əlləri dinc insanların qanına bulaşan rus əsgərləri komendant saatına ciddi nəzarət edirdilər. Radio və televiziya işləmirdi. Ağdamın ən ağır günlərində həmişə bir yerdə olduğum Elşən Əliyev, Surxay Əlibəyli və bu sətirlərin müəllifi qərara aldıq ki, adamlara məlumat çatdırmaq üçün təcili bir qəzet buraxaq. Bakıda baş vermiş qırğın haqqında əhali xəbərdar olsun. Ağdam mətbəəsində işə başladıq. Mətbəənin direktoru rəhmətlik İsa Məmmədov linotip və çap maşınını ixtiyarımıza verdi. Sovet hökumətinə, onun iyrənc siyasətinə etiraz bildirən və şəhidlərimizin qəhrəmanlığını əks etdirən qəzeti çapa hazırladıq. Qərara aldıq ki, qəzetin adını "Ağdam" qoyaq. Elə də etdik və qəzeti çap edərək rayon mədəniyyət şöbəsinə məxsus maşınla onu yaymağa başladıq. Qəzetin tirajı təxminən 500 ədəd idi. Qəzet əl-əl gəzirdi, insanlar yerli rəhbərlərdən tələb edirdilər ki, onların Bakı şəhərinə getmələri üçün şərait yaratsınlar. Çox güman ki, həmin qəzet hərbi komendantın da əlinə keçmişdi. Buna baxmayaraq, qəzetin 2-ci sayını hazırlayıb çap edəndə xəbər tutduq ki, hərbi komendant və bir neçə silahlı əsgər mətbəəyə gəlir. Əziyyətlə çap etdiyimiz qəzeti mətbəənin yaxınlığında tez yandırdıq. Bir neçə nüsxə gizlədə bildik. Cəmi iki sayı çıxan "Ağdam" qəzeti qara buludların içərisində şimşək kimi çaxdı. Əslində bu bizim vətəndaşlıq borcumuz, jurnalist məsləkimiz idi.

Tariximizə qəhrəmanlıq salnaməsi kimi yazılan 20 Yanvar hadisələrindən 35 il keçir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23:30-da Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri yeridilib, dinc əhaliyə divan tutulub. Yüzlərlə insan qətlə yetirilib, yaralananlar və itkin düşənlər olub. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək cinayətkar hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıblar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib. Beləliklə, keçmiş sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və digər rayonlarda 150 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub. 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirmədi, əksinə, haqq səsini daha ucadan bəyan etdi. Doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları düz 35 il əvvəl həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. M.Qorbaçovun göstərişi ilə xüsusi hərbi birləşmələr və zirehli texnika Bakı şəhərində və eləcə də digər yaşayış məntəqələrində dinc insanları məhv etmək üçün onların üstünə yeridilib. Dinc əhaliyə, uşaqlara, qocalara xüsusi qəddarlıq və misli görünməyən vəhşiliklə divan tutulub. İmperiyanın qaniçən ordusu qocalara, uşaqlara, qadınlara və xəstələrə belə aman verməyərək onları qətlə yetirib, Bakı şəhəri qan gölünə çevrilib. Qanlı Yanvar gecəsi həlak olan insanlar arasında Ağdamdan elə Yanvar adında bir nəfər də olub. Qanlı faciə xalqımızın azadlığı uğrunda mübarizəsini daha da möhkəmləndirdi. Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəlmiş, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etmiş, xalqımızın başına gətirilən müsibəti bütün dünyaya çatdırmışdır. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etmişdir. Misli görünməmiş bu qanlı faciəyə siyasi-hüquqi qiyməti ilk dəfə xalqımızın ümummilli lideri Heydər Əliyev verib və bəyan edib ki, bu faciə Azərbaycan xalqının müstəqillik mübarizəsini boğmaq üçün törədilib.

Şəhidlərin ölməz ruhu həmişə qəlbimizdə yaşayacaq və gələcək nəsillər igid övladlarımızın fədakarlığından həmişə qürur duyacaqlar. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş mərd mübarizlərin adlarının əbədiləşdirilməsi, şəhid ailələrinə, Qarabağ əlillərinə diqqət və qayğının artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, bu təbəqədən olan insanların mənzil və maşınla təmin edilməsi Prezident İlham Əliyevin fəaliyyətində ən önəmli yerlərdən birini tutur. Biz şəhid verdik, lakin qalib gəldik. Biz nə əyildik, nə sındıq. O gün xalqın "Azadlıq!" hayqırtısı göylərə qalxdı. Biz o azadlığı qanımız bahasına əldə etdik... Elə bir gün olmur ki, Şəhidlər xiyabanı ziyarət olunmasın. Dövlət başçımızın görüşünə gələn xarici qonaqlar da buranı ziyarət edir, əbədi məşəl qarşısında baş əyirlər.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı bir yumruq kimi birləşərək tarixi missiyasını qələbə ilə yerinə yetirdi. Bu Qələbə, bu Zəfər bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Tarixin, zamanın, güclülərin, tərəfkeşlərin amansız ziddiyyətlərin cövlan etdiyi bir məqamda Azərbaycan Qarabağ münaqişəsi, torpaq itkisi, erməni işğalı və hərbi təcavüzü, bir milyona yaxın məcburi köçkünün problemi ilə üz-üzə qalmışdı. Bütün bunlar xalqımızın taleyinə ağır zərbələr vurmuşdu. Ermənistan və ermənipərəst qüvvələr azərbaycanlılara qarşı törədilən deportasiyanı, soyqırımı, işğalı Xankəndidə və ətraf ərazilərdə məskunlaşan bir ovuc hayın öz müqəddəratını təyinetmə hüququ adı ilə saxtakarlıqla pərdələmək istəyirdilər, haqqımızı tarixin arxa bağçasında gizlətməyə çalışırdılar. Uzun illər ərzində aparılan danışıqlar heç bir fayda vermirdi, münaqişə dondurulurdu, torpaqlarımızda ikinci "erməni dövlət"i qurmağa cəhdlər edilirdi. Çox mürəkkəb bir vəziyyət yaranmışdı, təhdid və hədələr havada uçuşurdu, Azərbaycanı radikal addımlar atmaqdan çəkindirirdilər. Nə vaxta qədər?! Bütün siyasəti, Vətən və xalq naminə həyata keçirdiyi əməlləri, doğma xalqına məhəbbəti ilə dünyanın siyasət meydanında qətiyyəti və iradəsi ilə tanınan, nəyi nə zaman, nə vaxt edəcəyini yaxşı bilən Prezident İlham Əliyevin qəti qərarı ilə həm otuz illik erməni işğalına son qoyuldu, həm də şəhidlərin intiqamı döyüş meydanında alındı, düşmən məğlub edilərək diz çökdürüldü. Dəmir iradəsi, qətiyyəti, Vətən və xalq məhəbbəti, liderlik xarakteri ilə 35 illik işğala son qoyan, haqqı, ədaləti bərpa edən, milli qürurumuzu, şərəfimizi ucaldan Qalib Ali Baş Komandan, Qarabağ fatehi İlham Əliyev dövranın nəbzini və mənzərəsini dəyişməyə nail oldu.

Salman ALIOĞLU,
"Respublika".